# Dəniz obyektlərində çalışan neftçilərin COVİD-19 əleyhinə peyvənd olunmasına başlanılıb









Dəniz obyektlərində çalışan neftçilərin karantində olan birinci qrupunun COVİD-19 infeksiyasına qarşı peyvənd olunmasına artıq başlanılmışdır.Bu qrupdan olan SOCAR əməkçiləri dənizdəki iş yerlərinə karantin müddətini tam keçdikdən sonra göndəriləcək, iş növbəsini başa vurub qayıtdıqdan sonra isə vaksinasiya qaydalarına uyğun olaraq, ikinci dəfə peyvənd olunacaqlar. Vaksinasiyadan keçmiş və ya COVİD-19 infeksiyasına yoluxaraq orqanizmlərində anticism yaranmış işçilərin isə karantində saxlanılmadan birbaşa işə cəlb ediləcəyi nəzərdə tutulur. Hazırlanmış plana əsasən, bütün dəniz neftçilərinin qısa müddətdə və mütəşəkkil qaydada peyvənd olunmaları üçün qrafik tutulmuş, zəruri tədbirlər görülmüşdür.

Xatırladaq ki, pandemiya müddətində neft və qaz hasilatının davamlılığının təmin edilməsi və dəniz obyektlərində çalışan işçi həyətin infeksiyaya yoluxmasının qarşısının alınması məqsədi ilə növbəli iş rejimində çalışan personal indiyə qədər növbədən əvvəl karantin zonasında COVİD-19 testindən keçirilir və 7 gün ərzində həmin zonada yaşamalı olurdu. Yalnız təkrar test nəticəsində infeksiyaya yoluxmadıqları təsdiq olunduqdan sonra onlar dəniz obyektlərinə göndərilirdilər. Pandemiyanın yayılmasının qarşısının alınması tədbirləri çərçivəsində ölkəmizin bütün aparıcı şirkət və müəssisələri kimi SOCAR da xüsusi iş rejiminə keçmiş, dəniz obyektlərində ənənəvi şəkildə tətbiq olunan 15 günlük iş növbəsinin 30 günədək uzadılması məqsədəuyğun sayılmışdı. Lakin iş və istirahət günlərinin illik sayı dəyişməz qalsa da, bu iş rejimi və dəniz neftçilərinin karantində keçirməli olduğu əlavə günlər onlar üçün əlavə psixoloji və sosial gərginlik yaradırdı. Bu zaman işin təşkili baxımından müəyyən çətinliklər yaranır, əlavə vəsait və resurslar sərf olunurdu. Odur ki, 30 günlük iş rejimindən ənənəvi rejimə keçirilməsi imkanları daim araşdırılırdı.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev cənablarının gərgin səyləri nəticəsində respublikamızda vaksinasiya proseslərinə dünyanın aparıcı ölkələri ilə eyni vaxtda başlanılması əhalinin bütün təbəqələrində böyük ruh yüksəkliyi yaratmış, dərin minnətdarlıq hissi ilə qarşılanmışdır. Ölkəmizdə vaksinasiya prosesinin belə tezliklə start götürməsi SOCAR-ın dəniz obyektlərində ənənəvi növbəlilik rejiminin bərpa olunması üçün də əlverişli imkan yaratmışdır. Yaranmış imkanı yüksək dəyərləndirən SOCAR rəhbərliyi dəniz neftçilərinin ilk növbədə peyvənd olunması xahişi ilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargaha müraciət etmiş və bu müraciət müsbət cavablandırılmışdır.

Qeyd edək ki, SOCAR-ın dəniz obyektlərində 10 mindən çox işçi fəaliyyət göstərir.